# Uğurlu başlanğıc

Ölkəmizin hər yerində olduğu kimi Qəbələ şəhər 2 saylı tam orta məktəbində də yeni dərs ili yüksək əhval-ruhiyyədə başladı. Buna onların haqqı var. Məktəbin 2014—2015-ci dərs ilinin məzunlarından 24 nəfər ali məktəblərə qəbul olunmuşdur. Dərs ilinin yekunlarına görə on birinci sinifin məzunu Lalə Mustafazadə qızıl medala layiq görülmüşdür. O, eyni zamanda fənn olimpiadalarının respublika turunda biologiya fənni üzrə qızıl medalla təltif olunmuşdur. Qəbul imtahanlarında məktəbin 2 məzunu 600 baldan, 4 nəfəri 500 baldan, 3 nəfəri isə 400 baldan yuxarı göstəriciyə nail olmuşdur. Bütün bunlar dərs ilinin başlanması ilə əlaqədar keçirilən tədbirdə məktəbin direktoru Təranə Səlimovanın çıxışında qeyd olunmuşdur. Tədbirdə üzlərindən sevinc və həyəcan yağan birinci sinif şagirdlərinin oxuduğu mahnılar, söylədiyi şeirlər toplaşanlarda xoş təəssürat yaratdı.

Dərs ilinin ilk gününün ən yadda qalan məqamı ondan ibarət oldu ki, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun mühazirəçiləri böyük auditoriya qarşısında çıxış etdilər. Fillologiya elmləri doktoru Seyfəddin Rzasoy "Heydər Əliyev Azərbaycanda multikulturalizmin siyasi banisidir" mövzusunda məruzə etdi. O, məruzəsində qeyd etdi ki, Azərbaycan multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikası Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür.

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü.

Bu gün Azərbaycanda multikulturalizm sahəsində bir-birini tamamlayan, sistemli xarakter daşıyan siyasi iradə və onun gerçəkləşməsi proqramı uğurla həyata keçirilir.

Müasir dövrdə Azərbaycan özünün multikulturalizm siyasəti və bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə, o cümlədən bu sahədə tarixən öz təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunə olmaqdadır. Seyfəddin Rzasoyun məruzəsindən sonra Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Ağaverdi Xəlilov şagirdlərin suallarına cavab verdi. Tədbirin sonunda S. Rzasoy məktəbin müəllim heyətinə və dəbatda fərqlənən şagirdlərə təşəkkür etdi.

Məktəbin direktoru, eyni zamanda Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun Qəbələ Rayon nümayəndəsi Təranə Səlimova qonaqlara təşəkkür etdi və bildirdi ki, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun daha bir məruzəçisi Quliyeva Könül Seyfəddin qızı E. Məmmədov adına Çarxana kənd tam orta məktəbində "Heydər Əliyev Azərbaycanda multyikulturalizmin banisidir" mövzusunda məruzə etmişdir.

**Vüsalə QARAYEVA,**
**Qəbələ şəhər 2 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi.**

# Qayğıya layiqli cavab verəcəyik

Mükəmməl təhsil sisteminə malik olmaq dövlətin gələcəyi və müstəqilliyinin mühüm şərtidir. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. Bu məqsədlə məktəblərin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və onların infrastruqturunun yeniləşdirilməsi böyük əhəmiyyət kəsb edir.

Rəhbərlik etdiyim Çuxur Qəbələ kənd tam orta məktəbinin binası bir neçə il bundan öncə (2009) əsaslı təmir olunmuş, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün hər cür şərait yaradılmışdır. Bunun nəticəsidir ki, 2014—2015-ci tədris ilində uğurlarımız daha yüksək olmuşdur. Belə ki, buraxılış imtahanlarında şagirdlərimiz əvvəlki illərlə müqayisədə fərqli nəticələr göstərmiş, fənn olimpiadalarının rayon və zona mərhələsində uğurla çıxış etmişlər. XI sinif şagirdi Abiyət Vəlizadə biologiya fənni üzrə respublika olimpiadasında bürünc medal qazanmışdır. Qəbul imtahanlarında isə o, IV ixtisas qrupu üzrə 619 bal toplamışdır.

Fəxrlə qeyd etmək istəyirəm ki, Çuxur Qəbələ kənd tam orta məktəbinin tarixində ilk dəfə Abiyətin timsalında orta təhsili qızıl medalla başa vuran məzun oldu .

Bu dərs ilində çalışacağıq ki, uğurlarımızı daha da artıraq və Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasında qeyd olunduğu kimi məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirək.

**Müşviq ƏZİZOV,**
**Çuxur Qəbələ kənd tam orta məktəbin direktoru.**

*5 oktyabr–Müəllimlər Günüdür*

# Müəllimlik şərəfli peşədir

Xalqımızın bir çox maarifçiləri tərəfindən dəfələrlə vurğulanmışdır ki, hər bir millətin mədəni tərəqqisi məktəblə, məktəbin tərəqqisi isə müəllimlərlə bağlıdır. Müəllim cəmiyyətə elə bir gərəkli və xeyirxah missiyanın daşıyıcısıdır ki, onun gördüyü işi heç kəs yerinə yetirə bilmir. Əsl müəllim özünü daim xalqa,-vətənə borclu hiss edir,bilik və bacarığını, qəlbinin hərarətini sabahımız naminə ərmağan edir.

Bu müqəddəs peşə sahibləri işıqlı insanlar olduqları üçün onları yanar şama bənzədiblər. Xalqın həyatının, inkişafının bütün mərhələlərində müəllimlər yol göstərən, öndə gedən olublar, Öz ağlı,istedadı, zəkası ilə fərqlənən müəllimlərimiz çox olub. Onlar xalqın həyatına ziya-işıq, nur bəxş ediblər. Bəlkə buna görə də «ziyalı sözünü işlədəndə ilk növbədə göz önünə müəllim siması gəlir.

5 oktyabr günü ziyalı, işıqlı insanların əziz müəllimlərin peşə bayramıdır. Həmin gün dünyanın əksər ölkələrində Müəllimlər Günü kimi qeyd olunur. Müəllim günündə hər bir müəllim ibtidai məktəbdə, birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi yada salır və bu xatirələrdə ən əziz yeri,əlbəttə ki, ona sevği və qayğı ilə qələm tutmağı, yazı yazmağı kitab oxumağı öyrədən müəllim tutur. 5 oktyabr Beynəlxalq Müəllimlər Günü hər il ölkəmizdə də bayramsayağı qeyd olunur. Həmin gün kiçikdən-böyüyə hamı bir daha müəllimlərə öz minnətdarlıq duyğularını bildirir.

Ümumiyyətlə, müəllim adı dünyanın hər yerində qürurla, hörmətlə səslənir. Təsadüfi deyil ki, UNESCO 1966-cı il oktyabrın 5-də hər il beynəlxalq Müəllimlər gününün qeyd olunması ilə bağlı qərar verib. Bu təşkilat eyni zamanda müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul edib. İndi dünyanın 100-dən çox ölkəsi müəllimlərin peşə bayramını yüksək səviyyədə keçirir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Respublikasında bu günün qeyd olunması ilə əlaqədar xüsusi sərəncam imzalamışdır. O, öz müəllimlərini minnətdarlıqla xatırlayır, onların xidmətləri haqqında ürəkdolusu danışırdı. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi iki dövrdə müəllimlərin əməyini yüksək qiymətləndirmiş, onlara dövlət səviyyəsində qayğını əsirgəməmişdir. O, deyirdi: «Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir». Ulu öndər hər zaman müdrikliklə vurğulamışdır ki, yüksək savadlı, intellektual səviyyəli müəllimlər olmadan cəmiyyətin hərtərəfli inkişafını təmin etmək mümkün deyil.

Ulu öndər müəllimlərin əməkhaqqının artırılması, onlara fəxri adların verilməsi ilə əlaqədar dəfələrlə sərəncamlar imzalamışdır. Təqdirəlayiq haldır ki, bu ənənə son 12 ildə də dövlət tərəfindən uğurla davam etdirilir. Bu gün Prezident cənab İlham Əliyev təhsilə və təhsil işçilərinə yüksək səviyyədə qayğı göstərir.

Prezidentimiz eyni zamanda təhsil müəssisələrinin maddi texniki bazasının möhkəmləndirilməsinə, yeni təhsil ocaqlarının tikintisinin aparılmasına xüsusi qayğı və diqqət yetirir, pedaqoji fəaliyyətdə müsbət nəticələr qazanan məktəblərin və müəllimlərin əməyini yüksək səviyyədə qiymətləndirir. Son 3—4 il ərzində Prezidentin sərəncamı ilə Qəbələ şəhər 1 saylı, 4 saylı və Nohurqışlaq kənd tam orta məktəbləri respublika üzrə «İlin ən yaxşı məktəbi» müsabiqəsinin qalibi olmuş, hər üç məktəbə ayrı-ayrılıqla on min manat məbləğində pul mükafatı verilmişdir. Bundan başqa təhsil ocaqlarında çalışan, təlim-tərbiyənin səviyyəsini yüksəldən və keyfiyyətini yaxşılaşdıran müəllimlər «Şərəf nişanı», «Xalqlar dostluğu ordeni», «Tərəqqi» medalı ilə, «Əməkdar müəllim» fəxri adları ilə təltif olunmuşlar.

Bugün Qəbələnin ən ucqar və dağ kəndlərində də müasir məktəb binaları tikilib istifadəyə verilmişdir. Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi rayonun bütün vətəndaşlarında iftixar hissi oyadır. Bu istiqamətdə Fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüslərini və fəaliyyətini hamı alqışlayır.

Biz də öz növbəmizdə dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşə sahibləri olan müəllimləri peşə bayramı münasibətilə təbrik edirik və gənc nəslin təlim-tərbiyəsində uğurlar arzulayırıq.

**Aslan CƏLİLOV.**